**İdxal olunan ərzaqlıq kartof məhsulunda zərərvericinin aşkarlanmasına dair məlumat**

**(31 mart 2023)**

Nəzarət tədbirləri çərçivəsində Agentlik əməkdaşları tərəfindən Gürcüstan Respublikasından “Elvin 060” MMC-nin idxal etdiyi “OOO GEO Export” şirkətinə məxsus 24500 kq ərzaqlıq kartof məhsulundan nümunələr götürülərək təhlükəsizlik göstəricilərinin müəyyən edilməsi məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. Müayinələr nəticəsində məhsul partiyasında  karantin tətbiq edilən zərərverici − kartof yumrularında halqavarı çürümə (Clavibacter michiganensis subsp. sepedonicus) aşkar edilib.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görülüb. İstehlaka yararsız məhsul partiyası məişət tullantıları poliqonunda məhv edilib.